Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Yanvar 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

## “ BU STANSİYANIN YARADILMASI ÖLKƏNİZİN İNVESTİSİYALARI HESABINA MÜMKÜN OLMUŞDUR.

Əməkdaşlığımız çoxşaxəlidir, bir çox sahələri əhatə edir və yaxın keçmişdə enerji sahəsində, xüsusilə yaşıl enerji sahəsində çox önəmli addımlar atılmışdır. Keçən ilin oktyabr ayında Azərbaycanda 230 meqavat gücündə günəş elektrik stansiyasının açılışı olmuşdur. Bu stansiyanın yaradılması ölkənizin investisiyaları hesabına mümkün olmuşdur. Bu, sadəcə olaraq, birinci addımdır. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında Sizin ölkənizin sərmayələri hesabına Azərbaycanda 10 qiqavat yaşıl enerji istehsalı nəzərdə tutulur.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 09 yanvar 2024-cü il tarixində Birləşmiş Ərəb Əmirlikləri prezidenti ilə geniş tərkibdə keçirilmiş görüşdəki nitqindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ____ səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 19

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 21

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2023-cü ilin yanvar-dekabr ayları ərzində 33,9 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-dekabr aylarında qeyri-neft sektoru üzrə ixrac 3,3 milyard ABŞ dolları təşkil etmişdir

2023-cü ilin yanvar-dekabr ayları ərzində Azərbaycanın ümumi ixracı **33,9 milyard ABŞ dolları**, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə **9,8%** artaraq **3,3 milyard ABŞ dolları** təşkil edib. 2023-cü ilin yanvar-dekabr ayları ərzində yeyinti məhsulları üzrə ixrac **928,2 milyon ABŞ dolları**na bərabər olub.

2023-cü ilin 12 ayı ərzində elektrik enerjisinin ixracı 3,3 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 1,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 19,3%, qara metallardan məmulatların ixracı 13,3%, meyvə-tərəvəz ixracı isə 8,7% artıb.

2023-cü ilin yanvar-dekabr ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 6,2% artaraq 969,2 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2% artaraq 201 milyon ABŞ dolları təşkil edib.

2023-cü ilin yanvar-dekabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (402,5 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (162,8 milyon ABŞ dolları) ikinci, pomidor (tomat) (162 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2023-cü ilin yanvar-dekabr ayları ərzində Rusiya Federasiyasına 1,1 milyard ABŞ dolları, Türkiyəyə 783,9 milyon ABŞ dolları, Gürcüstana 332,5 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 175,3 milyon ABŞ dolları, Qazaxıstana isə 95 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Ötən ilin dekabr ayının qeyri-neft ixracı **3,8%** artaraq **314,3 milyon ABŞ dolları** olub. Yeyinti məhsulları üzrə ixrac ixrac isə 0,9% artımla 106,6 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 5,4% artımla 207,7 milyon ABŞ dolları təşkil edib.

2023-cü ilin dekabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (110,3 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (55,1 milyon ABŞ dolları) ikinci və Gürcüstan (32,6 milyon ABŞ dolları) üçüncü olub.

2023-cü ilin dekabr ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (35,8 milyon ABŞ dolları) birinci, elektrik enerjisi (23,2 milyon ABŞ dolları) ikinci və pomidor (tomat) (21,3 milyon ABŞ dolları) üçüncü olub.



# 2023-CÜ İLİN YANVAR-DEKABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2023-CÜ İLİN DEKABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2022 | 2023

**+3,8%**

**302,7 mln** (2022)



**314,3 mln** (2023)

# 2023-CÜ İLİN DEKABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI yanvar



# 2023-CÜ İLİN YANVAR-DEKABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI
(2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)



Aqrar məhsullar

Aqrar-sənaye məhsulları

**969,2 mln $**

2022/2023
**+6,2%**



2022/2023
**+7,1%**

**768,2 mln $**

**201 mln $**

2022/2023
**+3,2%**

# 2023-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI yanvar

| 2023 | Ölkə | 2022 |
|---|---|---|
| 1,1 mlrd | Rusiya | 928,6 |
| 783,9 | Türkiyə | 713,1 |
| 332,5 | Gürcüstan | 228,4 |
| 175,3 | İsveçrə | 198,5 |
| 95 | Qazaxıstan | 102,7 |

# 2023-CÜ İLİN DEKABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2023-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI yanvar

| | 2023 | 2022 |
|---|---|---|
| Elektrik enerjisi | 402,5 | 121,6 |
| Qızıl | 162,8 | 185,2 |
| Tomat (pomidor) | 162 | 167,6 |
| Xurma | 127,2 | 113,4 |
| Pambıq mahlıcı | 122,4 | 173,5 |
| Meşə fındığı | 119,6 | 106,3 |
| İlkin formalı polipropilen (5 PP) | 109,9 | 91,4 |
| İlkin formalı propilen sopolimerləri (PE) | 93,6 | 50,1 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen (PE) | 92 | 54,9 |

# 2023-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2023 | 2022 |
|---|---|---|
| Metanol (metil spirti) | 89,9 | 131,9 |
| Polimerləşmədə ilkin formalı maddələr | 84,8 | 81,5 |
| Karbamid | 83 | 209,7 |
| Digər yağlar və məhsullar | 64,1 | 79,3 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 $sm^3$-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 63,4 | 11,4 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 63,4 | 91,7 |
| Alma | 57,2 | 52 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 52,9 | 43,6 |
| Şaftalı | 51,4 | 32,9 |

# 2023-CÜ İLİN DEKABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2023 | 2022 |
| --- | --- | --- |
| Xurma | 35,8 | 23,9 |
| Elektrik enerjisi | 23,2 | 56,7 |
| Tomat (pomidor) | 21,3 | 16,8 |
| Qızıl | 19,5 | 29,1 |
| Pambıq mahlıcı | 11,3 | 12,4 |
| Meşə fındığı | 11,2 | 12,7 |
| Karbamid | 10,5 | 11,1 |
| İlkin formalı polipropilen | 9,4 | 6,6 |
| Polimerləşmədə ilkin formalı maddələr | 8,5 | 5,7 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2023-cü ilin yanvar-dekabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: Şirinov Elvin Valeh oğlu, “MKT İstehsalat Kommersiya” MMC, “Baku Steel Company” QSC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “Best Logistik” MMC, “My Fruit” MMC, “STP Global Cable” MMC, “P-Aqro” MMC, Muradova Sahibə Səlimət qızı, “Mors Trading” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə “Azərenerji” ATSC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi”, Socar Polymer” MMC, “Azəralüminium” MMC, “AzerGold” QSC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Hava Yolları” QSC, “Azəripək” MMC, “Azərbaycan Dəmir Yolları” QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2023-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI yanvar



# 2023-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## (ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2023-cü ilin yanvar-dekabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) **19,8 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2023-cü ilin yanvar-dekabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 48 ölkəsinə **19,8 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. 2023-cü ilin dekabr ayında isə “Azərkosmos” dünyanın 45 ölkəsinə **1,8 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2023-cü ilin yanvar-dekabr ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **5,8 milyon ABŞ dolları** ilə Birləşmiş Krallıq, **4,1 milyon ABŞ dolları** ilə Lüksemburq, **1,6 milyon ABŞ dolları** ilə BƏƏ, **1 milyon ABŞ dolları** ilə Almaniya və **724,9 min ABŞ dolları** ilə Nigeriya qərarlaşıb.

# 2023-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 19,8 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 5,8 mln $ | Birləşmiş Krallıq |
| 4,1 mln $ | Lüksemburq |
| 1,6 mln $ | BƏƏ |
| 1 mln $ | Almaniya |
| 724,9 min $ | Nigeriya |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT

## 2023-cü ilin yanvar-dekabr ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 2,2 milyard manatlıq əməliyyat aparılıb.

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2023-cü ilin yanvar-dekabr aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **2,2 milyard manat**, yalnız dekabr ayında isə **202,7 milyon manat** dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI yanvar

| | 2021* | 2022 | 2023 |
|---|---|---|---|
| Yanvar | 72,2 | 204,7 | 171,5 |
| Fevral | 112,2 | 186,5 | 162,3 |
| Mart | 93,2 | 158,6 | 218,1 |
| Aprel | 64,1 | 136,6 | 126 |
| May | 81,3 | 184,1 | 173,4 |
| İyun | 89,7 | 203,6 | 148,6 |
| İyul | 96 | 214 | 218,8 |
| Avqust | 105,3 | 214,6 | 200,9 |
| Sentyabr | 124,4 | 155,5 | 186,2 |
| Oktyabr | 124,4 | 149 | 203,6 |
| Noyabr | 151,1 | 158,1 | 181,8 |
| Dekabr | 171,7 | 190,5 | 202,7 |
| | **1,3 mlrd** | **2,2 mlrd** | **2,2 mlrd** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

6

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 11,5 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2024-cü ilin yanvar ayı ərzində **146 müraciət** daxil olub. Müvafiq dövr ərzində 291 ədəd sertifikat (169 ədəd mənşə, 1 ədəd baytarlıq, 111 ədəd fitosanitar, 10 ədəd CİTES) təqdim edilib.

2023-cü il üzrə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən qeyri-neft ixracının dəyəri **242,9 milyon ABŞ dolları** təşkil edib.

2024-cü ilin yanvar ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **11,5 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən pambıq mahlıcı, pambıq çiyidi, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidi yağı, pomidor, dondurma, pendir, kərə yağı, qənnadı məmulatları, limonad, nar, alma, albalı, qarışıq şirələr, dondurulmuş

Xəzər kilkəsi, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, meymun, ayı, tibbi zəli, tullantı qida yağları, su nasosu, fasad örtükləri, klinker, ferrosilisium, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında pambıq mahlıcı, polad boru, süd məhsulları, meyvə şirələri, akvakultur üsulu ilə yetişdirilmiş balıq kürüsünün ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Rusiya, Türkiyə, Ukrayna, Monqolustan, Almaniya, Səudiyyə Ərəbistanı, Əfqanıstan, Suriya, Livan, Türkmənistan, Seneqal, ABŞ, Kanada, Polşa, Qırğızıstan, BƏƏ, Bolqarıstan, Belarus üstünlük təşkil etmişdir.



# 2024-CÜ İLİN YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR
(faizlə)

**58,1%**
Mənşə sertifikatı

**38,1%**
Fitosanitar sertifikatı

**3,4%**
CİTES sertifikatı

**0,4%**
Baytarlıq sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat